*“Strateji xəttimiz - sərbəst iqtisadiyyat, özəlləşdirmə və sosial inkişaf yoludur”*

**HEYDƏR ƏLİYEV**

# MÜLKİYYƏT

Şənbə, 7 Yanvar 2017-ci il №01 (1004) Qiyməti 30 qəpik Qəzet 1996-cı ildən çıxır


# Prezident İlham Əliyev 2016-cı ildə də regionların sosial-iqtisadi inkişafı ilə bağlı həyata keçirilən layihələrlə şəxsən maraqlanıb və yeni müəssisələrin təməlini qoyub

**Azərbaycan Respublikasının son 10 ildəki sosial-iqtisadi tərəqqisini təmin edən ən başlıca amillərdən biri ölkə regionlarının davamlı və tarazlı inkişafına nail olunması ilə bağlıdır. Regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramlarının uğurla reallaşdırılması ölkəmizin bütün bölgələrinin sosial-iqtisadi mənzərəsini xeyli yaxşılaşdırıb, yerlərdə iqtisadi fəallığın və təşəbbüskarlığın artmasına, vacib infrastruktur layihələrinin reallaşdırılmasına imkan yaradıb.**



## Regionlara dəstək sosial-iqtisadi inkişaf strategiyasının mühüm tərkib hissəsidir

Bu gün regionların inkişafı ölkədə uğurla həyata keçirilən davamlı sosial-iqtisadi inkişaf strategiyasının mühüm tərkib hissəsidir. Regionların inkişafı sahəsində qəbul edilmiş və uğurla həyata keçirilmiş dövlət proqramlarında, habelə regionların sosial-iqtisadi inkişafına dair əlavə tədbirlərlə bağlı Prezident İlham Əliyevin imzaladığı sərəncamlarda nəzərdə tutulmuş vəzifələrin icrası ölkədə qeyri-neft sektorunun davamlı inkişafına, regionlarda kommunal xidmətlərin və sosial infrastruktur təminatının keyfiyyətinin yüksəldilməsinə təkan verdi.

Bölgələrdə kənd təsərrüfatının, emal sənayesinin, turizmin, təhsil və səhiyyənin, həmçinin müxtəlif xidmət sahələrinin inkişafı istiqamətində mühüm işlər həyata keçirilir. Bu da bir daha göstərir ki, regionların sosial-iqtisadi inkişafı dövlətin iqtisadi siyasətinin prioritet istiqamətlərindən biri kimi xüsusi diqqət mərkəzində saxlanılır və Prezident İlham Əliyev bu məqsədlə ölkənin bütün şəhər və rayonlarına müntəzəm səfərlər edir, görülən işlərlə şəxsən maraqlanır, yeni müəssisə və obyektlərin təməlqoyma və açılış mərasimlərində iştirak edir. Dövlət başçısının bölgələrə səfərləri çərçivəsində müxtəlif təyinatlı infrastruktur obyektlərinin açılış və təməlqoyma mərasimlərində iştirakı, müəssisələrin fəaliyyəti ilə yaxından tanış olması, eləcə də ictimaiyyətlə keçirdiyi görüşlərdə qaldırılmış məsələlərin həlli məqsədilə vəsaitin ayrılması regionların inkişafına göstərdiyi diqqətin bariz nümunəsidir.

Sosial-iqtisadi xarakterli yeni obyektlərin açılması ölkənin sənaye sahəsində çox ciddi işlərin aparıldığını göstərir. Artıq uzun müddətdir ki, Azərbaycanın iqtisadi inkişaf mərkəzi paytaxt Bakıdan regionlara keçib. Regionlarda yeni sənaye müəssisələrinin fəaliyyətə başlaması, bankların filiallarının təsis edilməsi, infrastrukturun yaxşılaşdırılması, on minlərlə yeni iş yerlərinin açılması, sənaye məhsullarının istehsalının reallaşması Azərbaycanın regionda cəlbedici ölkəyə çevrilməsinə şərait yaradıb.

## Reallaşan layihələr, sosial inkişafa təkan verən obyektlərin açılışı

Yola saldığımız 2016-cı ildə dövlət başçısı respublikanın əksər şəhər və rayonuna səfər edib. Tovuz, Gəncə, Ağsu, Ağdam (2 dəfə), Bərdə, Tərtər (2 dəfə), Qəbələ, İsmayıllı, Masallı, Biləsuvar, Salyan, Xaçmaz, Qusar, Sabirabad, Mingəçevir, Sumqayıt, Qazax, Ağstafa, Füzuli, Beyləqan, Zərdab şəhər və rayonlarına ümumilikdə 23 səfər edən dövlət başçısı mühüm sosial obyektlərin, mədəniyyət mərkəzlərinin, muzeylərin, parkların açılışı, avtomobil yollarının yenidən qurulması işləri ilə tanış olmuş, təməlqoyma mərasimlərində iştirak etmiş, hərbi hissələrə baş çəkmiş və sakinlərlə görüşlər keçirmişdir.

Dövlət başçısının ötən il bölgələrə səfəri Tovuz rayonundan başlayıb. Fevralın 16-da Tovuz şəhərindəki Heydər Əliyev Parkında aparılan yenidənqurma işləri ilə tanış olan Prezident rayonda yenidən qurulan Tovuz-Hunanlar-Qaraxanlı-Düz Cırdaxan avtomobil yolunun, Tovuzçay Su Anbarının, Heydər Əliyev Fondunun təşəbbüsü ilə inşa edilən 7 saylı körpələr evi-uşaq bağçasının və Qovlar şəhərindəki Gənclər Evinin açılış mərasimində iştirak edib.

Fevralın 17-də isə ölkə rəhbəri Gəncə şəhərinə səfər edib. Prezident hərbi qulluqçular üçün inşa edilən şəhərciyin açılışında iştirak edib və mənzillərdə yaradılmış şəraitlə tanış olub. Eyni zamanda dövlət başçısı 35/6 kV-luq «Nizami» yarımstansiyasının, Azərbaycan Dövlət Aqrar Universitetinin tələbə yataqxanasının, Mir Cəlal Paşayev adına 39 nömrəli tam orta məktəbin binasının və «Gəncə Avtomobil Zavodu» İstehsalat Birliyinin balansında olan 240 yerlik körpələr evi-uşaq bağçasının açılış mərasimində iştirak edib.

Son illər Gəncədə mədəniyyət və incəsənət müəssisələrinin tikintisi və müasirləşməsi prosesi də uğurla davam etdirilir. Prezident İlham Əliyev bu istiqamətdə görülən işlərlə də yaxından maraqlanıb. «İmamzadə» dini kompleksində aparılan əsaslı təmir və yenidənqurma işlərindən sonra yaradılan şəraitlə tanış olan Prezident Gəncə Dövlət Filarmoniyasının binasında tikinti işlərinin gedişi ilə maraqlanıb. Eyni zamanda Gəncəçay çayı boyunca yaradılan park-bulvar kompleksi, «Gəncə-2016-cı il Avropa Gənclər paytaxtı» parkında və Abbas Səhhət adına 1 nömrəli şəhər xəstəxanasında aparılan əsaslı təmirdən sonra yaradılan şəraitlə tanış olub.

Regionlarda hərtərəfli iqtisadi və sosial inkişafa təkan verən bu tədbirlər ilk növbədə Azərbaycan iqtisadiyyatının gücünü göstərməklə yanaşı, vətəndaşların həyatının yaxşılaşdırılmasına yönələn layihələrin davamlı olmasını nümayiş etdirir.

## Ali Baş Komandan kimi ön səngərdə, Prezident kimi düşmənlə üz-üzə yaşayan vətəndaşın yanında

Prezident İlham Əliyev aprelin 29-da Ağsu rayonuna səfər edib. Dövlət başçısı rayon mərkəzi xəstəxanasının yeni binasının, Bakı-Şamaxı-Yevlax avtomobil yolunun Muğanlı-Yevlax hissəsinin 115 kilometrliyində yenidənqurma işlərindən sonra açılışında iştirak edib.

May ayının 1-də isə Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva Ermənistan silahlı qüvvələri ilə təmas xəttində yerləşən Tərtər, Ağdam və Bərdə rayonlarında olublar. Dövlət başçısı əvvəlcə Tərtər rayonundakı «N» saylı hərbi hissəyə baş çəkib. Hərbi hissənin şəxsi heyəti ilə görüşdə Silahlı Qüvvələrin Ali Baş Komandanı ordumuzun aprel zəfərindən söz açıb və Ermənistan ordusunun törətdiyi təxribatların qarşısını alarkən şücaət göstərmiş döyüşçülərə hədiyyələr təqdim edib.

Daha sonra Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva aprelin 27-dən 28-nə keçən gecə işğalçı Ermənistan ordusu tərəfindən iriçaplı silahlardan və artilleriya qurğularından açılmış atəş nəticəsində zərər çəkmiş Tərtər şəhərinin Fikrət Əmirov küçəsində dağılmış evlərə baxıblar. Sakinlərlə söhbət zamanı Prezident İlham Əliyev dəymiş ziyanın tezliklə aradan qaldırılacağını bildirib. Dövlət başçısı və xanımı cəbhə xəttinin 200 metrliyində yerləşən Tərtər rayonunun Qapanlı kəndinə də baş çəkiblər.

Ali Baş Komandan Ağdam rayonunun qoşunların təmas xəttində yerləşən Mahrızlı kəndində də mövcud durumla maraqlanıb. Sakinlərlə görüş zamanı Ermənistanın təxribatına Azərbaycan Ordusunun layiqli cavab verdiyini deyən Prezident İlham Əliyev düşmənlə üzbəüz mövqelərdə yerləşən yaşayış məntəqələrinin sakinlərinin fədakarlıqlarını, cəsarətini və torpağa bağlılıqlarını xüsusi vurğulayıb və bunu əsl vətəndaşlıq nümunəsi kimi dəyərləndirib. Eyni zamanda dağılmış evlərin, sosial obyektlərin tezliklə bərpa olunacağını bildirib.

Həmin gün Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva Bərdə şəhərindəki Müalicə-Diaqnostika Mərkəzində düşmənin dinc əhalini hədəfə alması nəticəsində yaralanan Ağdamın Çəmənli və Qaradağlı kəndlərinin sakinlərinə baş çəkiblər.

Bu səfər bir daha Prezident İlham Əliyevin şəxsi cəsarəti, mərdliyi timsalında xalqımızın və ordumuzun qəhrəmanlığının, şücaətinin, vətənpərvərliyinin təcəssümü idi. Ali Baş Komandanın Qarabağa, birbaşa cəbhə xəttinə gedişi şübhəsiz ki, dövlət başçısının bölgələrə sistemli və mütəmadi hal alan səfərləri kontekstində əlahiddəliyinə görə xüsusi fərqləndi. Çünki bu səfərin əsas məqsədi Prezidentin məhz Ali Baş Komandan statusunda öz əsgərləri və savaşda zərər çəkən vətəndaşları ilə görüşü idi. Ali Baş Komandan böyük hərbi riskə baxmayaraq, ön səngərə getdi, cəsarət və mərdliyi ilə şəxsi nümunə göstərdi, ümumilikdə xalqımızın və ordumuzun qorxmazlığını nümayiş etdirdi. Eyni zamanda dövlət başçısı onu göstərdi ki, Ali Baş Komandan kimi ön səngərdəki əsgərlərlə, Prezident kimi düşmənlə üz-üzə yaşayan sadə vətəndaşlarla birlikdədir.

## Turizm və idman infrastrukturu layihələri uğurla icra olunur

Avqustun 10-da Qəbələ rayonuna səfər edən Prezident İlham Əliyev rayonda Heydər Əliyev Fondunun təşəbbüsü ilə inşa olunan uşaq bağçasının, Yeni Azərbaycan Partiyası Qəbələ rayon təşkilatının yeni inzibati binasının, Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin Qəbələ regional «ASAN xidmət» mərkəzinin, «Qafqaz Tufandağ Mountain Resort» hotelinin və Nohurqışlaq-Tüntül-Yengicə avtomobil yolunun əsaslı təmirdən sonra açılışında iştirak edib. «Qəbələ» Park-Bulvar Kompleksinin yenidənqurmadan sonra istifadəyə verilməsi mərasimində iştirak edən dövlət başçısı icrası davam edən turizm və idman infrastrukturu layihələri ilə tanış olub. Həmçinin «Şinkar Holdinq» MMC tərəfindən aparılan layihələndirmə və tikinti işləri çərçivəsində 2,5 hektar ərazidə 226 nömrədən ibarət yeni «Qafqaz Akva Lənd» hoteli və tikintisi davam etdirilən «Qafqaz Daymond Akvapark»dakı tikinti işlərinin gedişatı ilə maraqlanıb, Dövlət Sərhəd Xidmətinin Şəki Sərhəd Dəstəsinin «Laza» sərhəd zastavasında yaradılan xidmət və məişət şəraiti ilə tanış olub.

Həmin gün Qəbələyə səfərini başa çatdıran dövlət başçısı İsmayıllı rayonunda da mühüm sosial obyektlərin açılışını edib. «İsmayıllı-2» Su Elektrik Stansiyasının, «İSMA BİKES» velosiped istehsalı zavodunun, əsaslı şəkildə yenidən qurulan Qaraməryəm-İsmayıllı avtomobil yolunun açılış mərasiminə qatılan Prezident İlham Əliyev rayondakı Olimpiya İdman Kompleksində və Heydər Əliyev Fondunun təşəbbüsü ilə əsaslı şəkildə yenidən qurulan körpələr evi-uşaq bağçasında yaradılan şəraitlə tanış olub.

Sentyabrın 3-də isə Prezident İlham Əliyev Masallı, Biləsuvar və Salyan rayonlarına səfər edib. Öncə Masallıda Bayraq meydanının və Azərbaycanın Dövlət Rəmzləri Muzeyinin açılışını edən dövlət başçısı, həmçinin Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin «ASAN həyat» kompleksinin, tarix-diyarşünaslıq muzeyinin, 640 yerlik uşaq-incəsənət məktəbinin, şəhərin içməli su təchizatı layihəsinin (şəhər su və kanalizasiya sisteminin) açılış mərasimlərinə qatılıb.

Biləsuvar rayonunda isə 132 çarpayılıq mərkəzi rayon xəstəxanasının, uzunluğu 6 kilometr olan Əsgərabad-Muğan-Çaylı avtomobil yolunun yenidənqurma və bərpadan sonra açılışında iştirak edib.

Salyan şəhərinə Şirvan-Muğan magistral kəmərindən çəkilmiş yeni içməli su xəttinin açılış mərasiminə qatılan dövlət başçısı tarix-diyarşünaslıq muzeyinin, Yeni Azərbaycan Partiyası Salyan rayon təşkilatının yeni inzibati binasının, Babazanan yaşayış massivini şəhərin mərkəzi ilə birləşdirən, Kür çayı üzərində uzunluğu 201 metr, eni 14,5 metr olan yeni körpünün, Ələt-Astara-İran İslam Respublikası dövlət sərhədi avtomobil yolunun Salyan rayonunun ərazisindən keçən 23,4 kilometrlik (31-ci kilometrdən 54,4-cü kilometrədək) hissəsinin açılışında iştirak edib. Prezident Salyana səfəri çərçivəsində Kürsəngi kəndindəki pambıq sahələrinə də baxıb.

Prezident İlham Əliyev sentyabrın 8-də Xaçmaz rayonuna səfər edib. Dövlət başçısı burada Heydər Əliyev Mərkəzinin yeni binasının, Nikah Evinin, Xudat-Yalama-Zuxuloba avtomobil yolunun və «Yalama» Südlük-Maldarlıq üzrə Damazlıq Dövlət Kənd Təsərrüfatı İstehsalı Müəssisəsinin bazasında yaradılmış Yalama Aqroparkının açılış mərasimlərində iştirak edib. Eyni zamanda Bayraq meydanında və Bayraq Muzeyində və Yalama qəsəbəsindəki Heydər Əliyev adına Parkda yaradılan şəraitlə tanış olub, Xudat şəhərinin bir qrup sakini ilə görüşüb.

Həmin gün Xaçmaza səfərini başa çatdıran dövlət başçısı Qusara gedib. Prezident əsaslı şəkildə yenidən qurulan Qusar-İmamqulukənd-Quxuroba avtomobil yolunun və Hil kəndində professor Kərim Kərimov adına tam orta məktəbin yeni binasının açılışında, Qusar şəhərinin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması layihəsinin başa çatması münasibətilə keçirilən mərasimdə iştirak edib.

## Kənd təsərrüfatının inkişafı və sənayeləşmə prosesində yeni mərhələ

Prezident İlham Əliyev sentyabrın 17-də Sabirabad rayonuna səfər edib. Öncə Sosialist Əməyi Qəhrəmanı Fatma Hüseynovanın pambıq tarlası ilə tanış olan dövlət başçısı pambıqçılarla görüşüb. Prezidentin sədrliyi ilə Sabirabadın Mədəniyyət evində pambıqçılığın inkişafı məsələlərinə dair respublika müşavirəsi keçirilib. Müşavirədə kənd təsərrüfatının inkişafında prioritet istiqamətləri müəyyənləşdirən dövlət başçısı sahibkarlara yaradılan şərait və gələcək planlar, görüləcək işlərlə bağlı geniş məlumat verib: «Kənd təsərrüfatının inkişafı Azərbaycanda prioritet sahədir. 2016-cı il pambıqçılığın inkişafı üçün həlledici il olacaq. Bu, bir başlanğıcdır və əminəm ki, bundan sonra pambıqçılıq Azərbaycanda sürətlə inkişaf edəcək, geniş vüsət alacaq. Dediyim kimi, bunun həm insanlara, həm dövlətə böyük xeyri olacaq. Azərbaycanda sənayeləşmə prosesi gedir. Biz indi sənaye müəssisələri yaradılması istiqamətində böyük işlər görürük. Emal sənayesi, kənd təsərrüfatı inkişaf etdirilir. Biz kənd təsərrüfatı məhsullarının ixracı üçün yeni bazarlara çıxmalıyıq və çıxırıq».

Sentyabrın 21-də Mingəçevir şəhərinə səfər edən Prezident İlham Əliyev yolüstü Bakı-Ələt-Qazax-Gürcüstan dövlət sərhədi avtomobil yolunun Kürdəmir-Ucar-Yevlax hissəsinin açılışında iştirak edib.

➢ *(Ardı 2-ci səhifədə)*


Davosda 47-ci Dünya İqtisadi Forumu (DİF) yanvarın 17-20-də keçiriləcək 2

Torpaq müsabiqə və hərraclarının keçirilməsi haqqında məlumat 3

07 fevral 2017-ci il tarixdə saat 11:00-da respublikanın şəhər və rayonlarında təkrar hərraca çıxarılacaq kiçik dövlət müəssisə və obyektlərinin siyahısı 4

07 fevral 2017-ci il il tarixdə saat 11:00-da Bakı şəhərində təkrar hərraca çıxarılacaq istifadəsiz olan daşınmaz dövlət əmlakının siyahısı 5

2017-ci il fevral ayının 7-də keçiriləcək pul hərracında səhmləri satışa çıxarılacaq səhmdar cəmiyyətləri haqqında məlumat 6

# Prezident İlham Əliyev 2016-cı ildə də regionların sosial-iqtisadi inkişafı ilə bağlı həyata keçirilən layihələrlə şəxsən maraqlanıb və yeni müəssisələrin təməlini qoyub

(Əvvəli 1-ci səhifədə)

Mingəçevir Şəhər Tarix Muzeyinin əsaslı yenidənqurmadan sonra təqdimatı olub. Dövlət başçısı yenidənqurmadan sonra muzeydə yaradılan şəraitlə və şəhərdə aparılan abadlıq, tikinti işləri ilə tanış olub. Prezident İlham Əliyev həmçinin Mingəçevir Sənaye Parkının təməlqoyma mərasimində iştirak edib.

Sentyabrın 27-də isə dövlət başçısı Sumqayıt şəhərinə səfər edib. Səfər çərçivəsində Prezident Heydər Əliyev Mərkəzinin yeni binasının, Dənizkənarı bulvarın və şəhər çimərliyinin, Şahmat məktəbinin və şəhər 3 saylı Uşaq İncəsənət məktəbinin açılışında iştirak edib. Əsaslı təmir edilərək yenidən qurulan Heydər Əliyev Parkı, Sumqayıt Dövlət Dram Teatrının binası və bir sıra küçələrdə aparılan yenidənqurma işləri ilə tanış olan dövlət başçısı Heydər Əliyev Mərkəzinin yeni binasında şəhər ictimaiyyətinin nümayəndələri ilə də görüşüb.

Oktyabrın 19-da Qərb bölgəsinə səfər edən Prezident İlham Əliyev öncə Qazax rayonunda olub. Qazax-Kosalar avtomobil yolu yenidənqurma və əsaslı bərpadan sonra istifadəyə verilmə mərasimində iştirak edən dövlət başçısı 110/35/6 kilovoltluq «Daş Salahlı» yarımstansiyasının və tarix-diyarşünaslıq muzeyinin yeni binasının açılışlarını edib. Eyni zamanda «Birinci Şıxlı Kəndli Fermer Təsərrüfatı» Məhdud Məsuliyyətli Cəmiyyətinin fəaliyyəti ilə yaxından tanış olub.

Həmin gün Ağstafa rayonuna da səfər edən dövlət başçısı əsaslı şəkildə yenidən qurulan Heydər Əliyev Mərkəzində yaradılan şəraitlə tanış olub. Prezident rayonda «Saloğlu» mebel istehsalı müəssisəsinin nəzdində yaradılmış «Modern» mebel fabrikinin, «Karvan-L EKO» sənaye parkında inşası başa çatdırılan müəssisələrin və istixana kompleksinin, Musiqi Mərkəzinin açılışlarında iştirak edib. Ağstafa Rayon Mədəniyyət Mərkəzində əsaslı təmir və yenidənqurmadan sonra yaradılan şəraitlə tanış olan Prezident «Ağstafa Aqroservis» MMC-nin nəzdində yaradılacaq taxıl və un məmulatları istehsalı kombinatının dəyirmanının təməlqoyma mərasimində iştirak edib.

## Aprel döyüşləri şanlı qələbəmiz, Lələtəpə əməliyyatı qəhrəmanlıq rəmzimizdir

Noyabrın 12-də Ali Baş Komandan bir daha cəbhə xəttinə yollanıb. Füzuli rayonuna səfər edən Prezident İlham Əliyev ön xətdə yerləşən komanda idarəetmə məntəqəsində əməliyyat şəraiti ilə tanış olduqdan sonra komanda idarəetmə məntəqəsindən düşmənin mövqelərini izləyib. Sonra Ali Baş Komandan döyüş tapşırığını yerinə yetirərkən xüsusi fərqlənmiş bir qrup hərbçiyə qiymətli hədiyyələr təqdim edib. Hərbçilərlə görüş zamanı Prezident bir daha işğalçı Ermənistan hakimiyyətinə ciddi mesajlar verib: «Bu ilin aprel ayında Ermənistan dövlətimizə, xalqımıza qarşı növbəti silahlı təxribat törətmişdir. Qəhrəman Azərbaycan Ordusu - xalqımızın əsgər və zabitləri bu təxribata layiqli cavab vermişdir. Uğurlu əks-hücum əməliyyatı keçirərək düşmənə sarsıdıcı zərbələr vurmuşdur və Azərbaycanın işğal altında olan torpaqlarının bir hissəsi azad edilmişdir. Bu gün biz Lələtəpə ərazisindəyik. Hələ bir neçə ay bundan əvvəl bu ərazi işğal altında idi. Biz bu işğala son qoyduq. Füzuli, Cəbrayıl və Ağdərə rayonlarının ərazilərində işğal altında olan 2000 hektardan çox torpaq uğurlu əks-hücum əməliyyatı nəticəsində işğalçılardan azad edilmişdir. Minlərlə hektar torpağa bu gün Azərbaycan Ordusu tam nəzarət edir».

Hərbçilərlə görüşdən sonra dövlət başçısı rayonda «Azərxalça» ASC-nin ilk filialının - xalça kombinatının və Horadiz şəhərində Dövlət Rəsm Qalereyasının açılışlarında iştirak edib. Horadizdə inşa edilən avtovağzal kompleksi və məcburi köçkünlər üçün salınan yeni qəsəbədə yaradılan şəraitlə tanış olan Prezident rayondakı 1-ci və 11-ci Qayıdış qəsəbələrini birləşdirən avtomobil yolunun yenidənqurma və bərpadan sonrakı vəziyyəti ilə maraqlanıb.

Həmin gün Prezident İlham Əliyev Beyləqan rayonuna səfər edib. Səfər çərçivəsində Bayraq Muzeyinin, Heydər Əliyev Fondunun təşəbbüsü ilə inşa edilmiş 240 şagird yerlik Beyləqan şəhər 8 nömrəli tam orta məktəb binasının, eləcə də Heydər Əliyev Fondunun təşəbbüsü ilə inşa olunan 8 saylı körpələr evi-uşaq bağçasının açılış mərasimlərində iştirak edən Prezident «Beyləqan şəhərinin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması» layihəsi çərçivəsində görülən işlərlə tanış olub, şəhərə içməli suyun verilməsini bildirən düyməni basıb. Prezident həmçinin «Qarabağ Taxıl» Məhdud Məsuliyyətli Cəmiyyətinin (MMC) özəl pilot taxılçılıq təsərrüfatının fəaliyyəti ilə əsaslı yenidənqurma və bərpadan sonra istifadəyə verilən Birinci Şahsevən-Əhmədli-Dünyamalılar avtomobil yolunda yaradılan şəraitlə tanış olub.

Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva dekabrın 2-də Zərdab rayonuna səfər ediblər. Dövlət başçısı və xanımı Zərdab Mərkəzi Rayon Xəstəxanasının əsaslı təmirdən sonra istifadəyə verilən yeni binasında yaradılan şəraitlə tanış olublar.

Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva dekabrın 3-də Tərtər rayonuna səfər ediblər. Rayonun Sarıcalı kəndində Tərtər çayı üzərində inşa edilmiş yeni körpünün, Heydər Əliyev Fondunun təşəbbüsü ilə inşa edilmiş Uşaq-Gənclər Şahmat Məktəbinin yeni binasının, Yeni Azərbaycan Partiyası (YAP) Tərtər rayon təşkilatının yeni inzibati binasının, Heydər Əliyev Fondunun təşəbbüsü ilə inşa edilmiş 100 yerlik körpələr evi-uşaq bağçasının açılışında iştirak edən dövlət başçısı və xanımı «Tərtər şəhərinin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması» layihəsinin başa çatması münasibətilə keçirilən tədbirdə də iştirak ediblər. Eyni zamanda aprel döyüşlərində ermənilərin atəşləri nəticəsində Tərtərdə ziyan dəymiş evlərdə aparılan təmir-bərpa işləri ilə tanış olublar.

Silahlı Qüvvələrin Ali Baş Komandanı Tərtərdə yeni inşa olunmuş «N» saylı hərbi hissədə də olub.

Həmin gün Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva Ağdam rayonuna gediblər. Quzanlı qəsəbəsində Heydər Əliyev Mərkəzinin və yeni inşa edilmiş Bayraq Muzeyinin açılışında iştirak edən dövlət başçısı və xanımı Ağdam Muğam Mərkəzinin təməlqoyma mərasimində iştirak ediblər.

Ötən ilin aprelində Ermənistan silahlı qüvvələrinin cəbhənin təmas xəttində törətdiyi təxribat nəticəsində mülki obyektlərə, evlərə ciddi ziyan dəymişdi. Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva Ermənistan silahlı qüvvələri ilə təmas xəttində yerləşən Ağdamın Mahrızlı kəndinə də gedib vəziyyətlə yerindəcə maraqlanmışdılar. Dövlət başçısı əhaliyə dəyən ziyanın aradan qaldırılması, evlərin bərpası və yenidən qurulması ilə bağlı tapşırıqlarını vermiş, əlavə vəsaitin ayrlması ilə bağlı sərəncam imzalamışdı. Ordumuzun aprel döyüşlərində qazandığı parlaq qələbə insanlarda böyük ruh yüksəkliyi yaratmış, onlar da Ali Baş Komandanın rəhbərliyi altında hər an doğma torpaqlar uğrunda mübarizəyə qalxmağa hazır olduqlarını bildirmişdilər. Sakinlərin hərbi əməliyyatlar zamanı dağıdılmış evləri artıq qısa vaxtda yenidən tikilib və bərpa olunub. Prezident və xanımı rayona səfərləri çərçivəsində Mahrızlı kəndinə gedərək evlərdə yaradılan şəraitlə də tanış olublar.

## Ötən il bölgələrdə 64 yeni obyekt açılıb, 3 müəssisənin təməli qoyulub

Hər il bölgələrin sosial infrastrukturunun, əhalinin rifah halının yaxşılaşdırılması istiqamətində verdiyi tapşırıqların icrası ilə şəxsən yerində maraqlanan Prezident İlham Əliyev 2016-cı ildə də bu missiyasını uğurla gerçəkləşdirdi. 21 şəhər və rayona səfər edib, 64 yeni obyektin açılışında, 3 təməlqoyma mərasimində iştirak edib.

Prezident İlham Əliyevin qarşıya qoyduğu əsas məqsədlərdən biri iqtisadiyyatda qazanılan uğurların miqyasını daha da genişləndirmək, o cümlədən respublikanın regionlarını sosial-iqtisadi baxımdan inkişaf etdirməkdir. Bu hədəflərə çatmaq üçün isə regionlarda mövcud potensialdan istifadənin səmərəsini artırmaq, iqtisadiyyatın və sənayenin ayrı-ayrı sahələrinin, aqrar sektorun, turizmin tərəqqisini təmin etmək, bir sözlə, kompleks inkişafa nail olmaq əsas vəzifələrdir. Bu istiqamətdə həyata keçirilən hər bir Dövlət Proqramı regionların inkişafında yeni mərhələnin başlanğıcını qoyub. Azərbaycan Respublikasının 2017-ci il dövlət büdcəsindən dotasiya almayacaq şəhər və rayonların sayının artması isə bunun əyani sübutudur. Əgər indiyədək ən çoxu 7 şəhər və rayon dövlət büdcəsindən dotasiya almırdısa, gələn ildən belə şəhər və rayonların sayı 34-ə çatacaq. Yerli gəlirləri hesabına büdcəsini təmin edən rayon və şəhərlərin sayı təxminən 5 dəfə artacaq.

Vaxtilə yalnız Bakının dotasiya almadığını, gələn il isə öz yerli xərcləri hesabına maliyyələşən şəhər və rayonların sayının 34-ə çatacağını nəzərə alsaq görərik ki, bu sahədə qarşıya qoyulan məqsədlər reallaşır. Məhz regional inkişaf strategiyasının uğurlu nəticələr verməsi büdcə dotasiyalarının həcmini azaldıb. Bu da öz növbəsində imkan verir ki, həmin vəsaitlər ölkənin inkişafı ilə bağlı digər istiqamətlərə yönəldilsin.

Prezident İlham Əliyevin respublikamızın rayon və şəhərlərinin iqtisadi inkişafı üçün yorulmadan həyata keçirdiyi və tək bugünə deyil, gələcəyə hesablanmış tədbirlər, həmçinin bu kontekstdə hökumətin qarşısında qoyduğu vəzifələrin davamlı və uğurlu icrası artıq müsbət nəticələrini verməkdədir.

**«Azərbaycan»**

# Davos İqtisadi Forumu yanvarın 17-20-də keçiriləcək




**Davosda 47-ci Dünya İqtisadi Forumu (DİF) yanvarın 17-20-də keçiriləcək.**

Forumun saytı xəbər verir ki, dünyanın aparıcı siyasətçilərinin, iş adamlarının, top-menecer və ekspertlərinin iştirak edəcəyi Forum «Bacarıqlı və məsuliyyətli liderlik» şüarı altında keçiriləcək.

Davos 50-dən çox dövlət və hökumət başçısını, habelə aparıcı beynəlxalq korporasiyaların rəhbərlərini qəbul etməyə hazırlaşır.

Qərargahı Cenevrədə yerləşən DİF ən böyük beynəlxalq qeyri-hökumət təşkilatıdır. Ənənəvi Forum İsveçin dağ-kurort şəhəri olan Davosda keçirilir. Qeyri-rəsmi adını da elə bu şəhərdən götürüb. Bundan əlavə, DİF müxtəlif ölkələrdə ənənəvi regional və milli zirvə görüşləri təşkil edir. Dünya İqtisadi Forumu 2013-cü il aprelin 7-8-də ilk dəfə Bakıda keçirilib. Bakı Forumu «Cənubi Qafqazın və Mərkəzi Asiyanın gələcəyi ilə bağlı strateji dialoq» mövzusuna həsr edilib.

Qlobal vəziyyətin iqtisadi inkişaf və sosial tərəqqi məsələlərinin həllində dünya birliyinə kömək etmək yolu ilə yaxşılaşdırılması DİF-in başlıca məqsədi elan edilib. Buna görə də Forum qlobal inkişafın mühüm problemlərini müzakirə və həll etmək üçün dünya birliyinin işgüzar, siyasi, intellektual və digər liderləri arasında tərəfdaşlığın inkişafına kömək edir.

## Azərbaycan nefti 56,28 dollar/barrelə satılır

Dünya birjalarında neftin qiyməti bahalaşmaqda davam edib.

Nyu-Yorkun NYMEX («New York Mercantile Exchange») birjasında «Layt» markalı neftin bir barrelinin qiyməti 0,50 dollar bahalaşaraq 53,76 dollar, Londonun ICE («InterContinental Exchange Futures») birjasında «Brent» markalı neftin bir barrelinin qiyməti 0,43 dollar artaraq 56,89 dollar olub.

«AzəriLayt» markalı neftin bir barrelinin qiyməti isə 0,31 dollar bahalaşaraq 56,28 dollar təşkil edib.

## Ötən ilin dekabrında BTC FOB Ceyhan tipli xam neftin bir barreli 54,92 dollara satılıb

2016-cı ilin dekabr ayında dünya bazarında «Brent» tipli xam neftin bir barreli 53,60 dollara, «Urals» neftinin bir barreli 52,69 dollara, BTC FOB Ceyhan tipli xam neftin bir barreli isə 54,92 dollara satılıb.

Bu barədə SOCAR-ın mətbuat xidmətindən məlumat verilib.

# Azərbaycan neftinin ilk partiyası Ukraynaya gətirilib

**«Ukrtatnafta» Publik Səhmdar Cəmiyyəti (PSC) yüngül Azərbaycan neftini emal üçün qəbul etməyə hazırlaşır. «Azeri Light» markalı neftin 80 min ton miqdarında partiyası dekabr ayının son günlərində Ukraynaya gətirilib və emal edilməsi üçün Kremençuq neft emalı zavoduna (NEZ) göndəriləcək.**



Şirkətin mətbuat xidmətindən bildiriblər ki, 2017-ci ildə «Ukrtatnafta» PSC üçün neft təchizatının ümumi həcmini bütövlükdə 1,3 milyon tona çatdırmaq planlaşdırılır.

Şirkətin məlumatında deyilir ki, bu layihənin icrası Azərbaycan ilə Ukrayna prezidentləri arasında Ukrayna NEZ-lərinin neftlə təchizatının bərpasına dair razılaşma sayəsində mümkün olub.

Xam neftin tədarükçüsü Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti - SOCAR-dır.

Məlumatda deyilir: «Layihənin həyata keçirilməsi sayəsində təkcə Kremençuq NEZ-in işi çoxalmayacaq, «Ukrtransnafta» ASC neft kəmərləri sistemi ilə neftin vurulmasının həcmi də artacaq. Bütün bunlar Ukrayna iqtisadiyyatının inkişafına və dövlət büdcəsinə vergi daxilolmalarının artmasına şərait yaradacaq. «Ukrtatnafta» PSC Kremençuq NEZ-i tərkibində kükürdün miqdarının az olduğu xam neftlə təchiz etməklə və müasir texnologiyalardan istifadə etməklə, yüksəkkeyfiyyətli neft məhsullarının istehsalını genişləndirməyi və «Avro-5» standartı parametrlərinə uyğun yanacaq istehsalına tam keçməyi planlaşdırır».

# Bu il 300 min ton karbamid yükü Azərbaycan üzərindən daşınacaq

**«Azərbaycan Dəmir Yolları» QSC-nin ictimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, Azərbaycan Dəmir Yolları Azərbaycan üçün böyük maraq kəsb edən, bir çox mühüm beynəlxalq nəqliyyat layihələrinin reallaşması prosesində aktiv iştirak edir. Əsas məqsədlərdən biri, Azərbaycanın əlverişli coğrafi mövqeyindən istifadə edərək, Beynəlxalq Nəqliyyat Dəhlizləri çərçivəsində, Mərkəzi və Şərqi Asiyadan Avropaya və əks istiqamətdə, ölkə ərazisindən keçən marşrutlara tranzit yüklərin cəlb edilməsidir.**



Tranzit yüklərin Azərbaycana cəlb olunması prosesində Beynəlxalq Dəniz Ticarət Limanı ilə qarşılıqlı əməkdaşlıq böyük önəm kəsb edir. Həmin əməkdaşlıq nəticəsində, 2016-cı il dekabr ayında Türkmənistandan Qara dənizə qədər, karbamid yükünün Azərbaycan üzərindən, tranzit olaraq nəql edilməsi prosesi həyata keçirilib. Sınaq məqsədi daşıyan həmin nəql prosesi zamanı yük gəmilərlə Bakı terminalına daşınıb, orada isə vaqonlara yüklənərək Gürcüstan istiqamətinə yola salınıb. Hava şəraiti ilə əlaqədar Xəzər dənizində bərə daşımalarında bəzi gecikmələr yarandığı üçün, bu yüklər tıxac əmələ gələn Ələt yox, məhz Bakı terminalına yönəldilib. Sınaq nəql prosesi uğurlu olduğundan, 2017-ci il ərzində 300 min ton həmin yükün bu marşrut üzrə daşınması planlaşdırılır.

Qeyd edək ki, yüklərin limandan sonra dəmir yolu ilə nəql edilməsi üçün, Bakı limanı istiqamətində olan dəmir yollarının balans saxlayıcısı Bakı Beynəlxalq Dəniz Limanı ilə birlikdə, DYP-nin Siqnal idarəsi cəlb olunmaqla, Neftçilər prospektini kəsən dəmir yolu üzərində təhlükəsizlik tədbirləri gücləndirilir.

Eyni zamanda, bərə terminalının Ələt qəsəbəsində inşa edilmiş yeni dəniz limanına köçürülməsi ilə əlaqədar olaraq, Neftçilər prospektini kəsən və istifadə olunmayan digər dəmir yolu, prospekt boyunca avtomobillərin təhlükəsiz və rahat hərəkətini təmin etmək məqsədilə 2017-ci il yanvarın 4-də sökülərək, «Azəravtoyol» ASC tərəfindən asfalt örtüklə əvəz edilib. Yanvarın 7-də isə Əhmədli stansiyası istiqamətində Neftçilər prospektini kəsən və istifadə olunmayan digər dəmir yolu sökülərək asfalt örtüklə əvəzlənəcək.

# Ötən il «Neft Daşları» NQÇİ üzrə hasilat 1 milyon tona çatıb

**2016-cı ilin son günlərində «Neft Daşları» neft və qazçıxarma idarəsi (NQÇİ) tarixi nailiyyətə imza atıb. Respublikamızın müstəqillik dövründə ilk dəfə olaraq NQÇİ üzrə illik hasilat 1 milyon tona çatdırılıb.**

SOCAR-ın mətbuat xidmətindən bildirilib ki, 1949-cu ildən işlənmədə olan «Neft Daşları» yatağında indiyədək qazılmış 2 min 211 quyudan 182 milyon 861 min ton neft, 14 milyard 92 milyon kubmetr qaz hasil olunub.



«Neft Daşları» NQÇİ-də hasilat 1967-ci ilə kimi artma tempi ilə davam edib, quyu fondu 700-ə, hasilat isə 7 milyon 600 min tona çatdırılıb. 1968-1990-cı illərdə hasilat aşağı düşərək 1990-cı ildə 963,3 min ton təşkil edib. NQÇİ-də hasilatın sabit saxlanılması və artırılması istiqamətində görülən tədbirlər, xüsusilə 2014-cü ildə qəbul edilmiş geniş tədbirlər proqramının icrası nəticəsində həmin il neft hasilatı 940 min tona, 2015-ci ildə isə 941 min tona çatdırılıb.

Son 3 ildə qazmadan 54 quyu alınıb, cari və əsaslı təmir işləri görülüb, 309 geoloji, 1584 texniki tədbir həyata keçirilib. Quyu fondu üzərində səmərəli iş aparılıb, yeni texnika və texnologiyalar tətbiq edilib, boş dayanmaların qarşısı alınıb, neftin maya dəyəri aşağı düşüb. Hasil olunan neftin əsas hissəsinin kompressor üsulu ilə çıxarıldığı nəzərə alınaraq, qazlift sisteminin etibarlılığını artırmaq məqsədilə xətlərdə donmaların və tutulmaların qarşısını almaq üçün 9 ədəd yüksəktəzyiqli seperator, alçaqtəzyiqli qaz xətlərinin üzərinə damcıtutanlar quraşdırılıb, 20 kilometrdən çox yüksəktəzyiqli qaz xətti təmir olunub və yenisi çəkilib, yığım-nəql sistemi təkmilləşdirilib, lay sularının tam həcmdə yığılaraq utilizasiya edilməsi üçün etibarlı ekoloji sistem yaradılıb. Böyük miqyasda əsaslı təmir işləri aparılıb, qısa müddət ərzində 2 ədəd yeni İriləşdirilmiş Seperasiya Qurğusu və 2a saylı İriləşdirilmiş Neftyığma Məntəqəsi tikilib. Bu sahədə işlər davam etdirilir.

Elektrik enerjisinə artan tələbatın ödənilməsi məqsədilə yeni Qazturbinli Elektrik Stansiyası tikilərək istismara verilib. Əfsanəvi Neft Daşlarının əmək kollektivi 2017-ci ilə yeni əmək nailiyyəti ilə qədəm qoyub.

# Torpaq müsabiqə və hərraclarının keçirilməsi haqqında məlumat

**Torpaq müsabiqə və hərracları fevral ayının 9-da keçiriləcəkdir.**

*(Ərizələr 9 yanvar 2017-ci il tarixdən 9 fevral 2017-ci il tarixədək qəbul edilir)*

| Sıra № si | Torpağı hərraca və ya müsabiqəyə çıxaran hüquqi şəxs (yerli icra hakimiyyəti, bələdiyyə) | Hərrac və ya müsabiqə | Hərrac və ya müsabiqənin keçirildiyi yer və əlaqə telefonu | Hərrac və ya müsabiqəyə çıxarılan torpaq sahəsi və satıcı ilə bağlanacaq müqavilənin layihəsi ilə tanış olma tarixi, vaxtı və ünvanı | Sahəsi (kv.m və ya ha.), Satılır və ya icarəyə verilir | Satışda-normativ qiymət, icarədə icarə haqqının aşağı həddi (manatla) | Hərracda ilkin qiymət, hərrac addımı və ya müsabiqədə qiymət, icarədə icarə haqqı (manatla) | Hansı məqsəd üçün Satılır və ya icarəyə verilir | Uqodiya (təsərrüfat yeri) növü, keyfiyyət qrupu, şəhərlərdə və rayon mərkəzlərində zona | Torpaq üzərində hüququ təsdiq edən sənədin nömrəsi |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| 1 | Abşeron rayonu Masazır Bələdiyyəsi | Müsabiqə | ƏMDK-nin 5 saylı ərazi şöbəsi - Sumqayıt şəh., 18-ci məhəllə Bina 4/12; Tel: (018) 6544797 | 9 fevral 2017, 15:00-dan 18:00-dək Sumqayıt şəhəri | 198 kv.m Satılır | 178 | 1604 | Fərdi yaşayış evi | I qrup | 308012013486 |
| 2 | Abşeron rayonu Fatmayı Bələdiyyəsi | Müsabiqə | ƏMDK-nin 5 saylı ərazi şöbəsi - Sumqayıt şəh., 18-ci məhəllə Bina 4/12; Tel: (018) 6544797 | 9 fevral 2017, 15:00-dan 18:00-dək Sumqayıt şəhəri | 600 kv.m Satılır | 540 | 1680 | Fərdi yaşayış evi | I qrup | 308012011917 |
| 3 | Sumqayıt şəhəri Sumqayıt Bələdiyyəsi | Müsabiqə | ƏMDK-nin 5 saylı ərazi şöbəsi - Sumqayıt şəh., 18-ci məhəllə Bina 4/12; Tel: (018) 6544797 | 9 fevral 2017, 15:00-dan 18:00-dək Sumqayıt şəhəri | 96.6 kv.m İcarə | 21 | 289.8 | Sahibkarlıq | II zona | 309012001977 |
| 4 | Sumqayıt şəhəri Sumqayıt Bələdiyyəsi | Müsabiqə | ƏMDK-nin 5 saylı ərazi şöbəsi - Sumqayıt şəh., 18-ci məhəllə Bina 4/12; Tel: (018) 6544797 | 9 fevral 2017, 15:00-dan 18:00-dək Sumqayıt şəhəri | 15 kv.m İcarə | 3.2 | 37.5 | Sahibkarlıq | II zona | 309012001948 |
| 5 | Sumqayıt şəhəri Sumqayıt Bələdiyyəsi | Müsabiqə | ƏMDK-nin 5 saylı ərazi şöbəsi - Sumqayıt şəh., 18-ci məhəllə Bina 4/12; Tel: (018) 6544797 | 9 fevral 2017, 15:00-dan 18:00-dək Sumqayıt şəhəri | 50 kv.m İcarə | 11 | 150 | Sahibkarlıq | I zona | 309012001776 |
| 6 | Sumqayıt şəhəri Sumqayıt Bələdiyyəsi | Müsabiqə | ƏMDK-nin 5 saylı ərazi şöbəsi - Sumqayıt şəh., 18-ci məhəllə Bina 4/12; Tel: (018) 6544797 | 9 fevral 2017, 15:00-dan 18:00-dək Sumqayıt şəhəri | 16 kv.m İcarə | 3.6 | 43.2 | Sahibkarlıq | I zona | 309012001988 |
| 7 | Sumqayıt şəhəri Sumqayıt Bələdiyyəsi | Müsabiqə | ƏMDK-nin 5 saylı ərazi şöbəsi - Sumqayıt şəh., 18-ci məhəllə Bina 4/12; Tel: (018) 6544797 | 9 fevral 2017, 15:00-dan 18:00-dək Sumqayıt şəhəri | 57.8 kv.m İcarə | 9.3 | 121.4 | Sahibkarlıq | III zona | 3090120002316 |
| 8 | Sumqayıt şəhəri Sumqayıt Bələdiyyəsi | Müsabiqə | ƏMDK-nin 5 saylı ərazi şöbəsi - Sumqayıt şəh., 18-ci məhəllə Bina 4/12; Tel: (018) 6544797 | 9 fevral 2017, 15:00-dan 18:00-dək Sumqayıt şəhəri | 335 kv.m Satılır | 301 | 744 | Sahibkarlıq | VI zona | 309012002210 |
| 9 | Siyəzən rayonu Siyəzən Bələdiyyəsi | Müsabiqə | ƏMDK-nin 5 saylı ərazi şöbəsi - Sumqayıt şəh., 18-ci məhəllə Bina 4/12; Tel: (018) 6544797 | 9 fevral 2017, 15:00-dan 18:00-dək Sumqayıt şəhəri | 30 kv.m İcarə | 2.4 | 30 | Qaraj tikintisi | II zona | 305012000703 |
| 10 | Siyəzən rayonu Yuxarı Ələz Bələdiyyəsi | Müsabiqə | ƏMDK-nin 5 saylı ərazi şöbəsi - Sumqayıt şəh., 18-ci məhəllə Bina 4/12; Tel: (018) 6544797 | 9 fevral 2017, 15:00-dan 18:00-dək Sumqayıt şəhəri | 1200 kv.m İcarə | 48 | 80 | kənd təsərrüfatı | kənd təsərrüfatı | 305012000718 |
| 11 | Saatlı rayonu Qara Nuru Bələdiyyəsi | Müsabiqə | ƏMDK-nin 7 saylı ərazi şöbəsi - Şirvan şəh,. M.Rəsulzadə küç 14; Tel: (021) 2152798 | 9 fevral 2017, 15:00-dan 18:00-dək Şirvan şəhəri | 551 kv.m Satılır | 46 | 2381 | Sahibkarlıq | V qrup,şərti yararsız | 908012000238 |
| 12 | Yevlax rayonu Yevlax Bələdiyyəsi | Müsabiqə | ƏMDK-nin 8 saylı ərazi şöbəsi - Mingəçevir şəh., H.Əliyev pros.26/11 Tel (024) 2744500 | 9 fevral 2017, 15:00-dan 18:00-dək Mingəçevir şəhəri | 57 kv.m Satılır | 62.7 | 627 | Sahibkarlıq | II zona | 901012000855 |
| 13 | Yevlax rayonu Yevlax Bələdiyyəsi | Müsabiqə | ƏMDK-nin 8 saylı ərazi şöbəsi - Mingəçevir şəh., H.Əliyev pros.26/11 Tel (024) 2744500 | 9 fevral 2017, 15:00-dan 18:00-dək Mingəçevir şəhəri | 15 kv.m Satılır | 21.75 | 165 | Sahibkarlıq | I zona | 901012000859 |
| 14 | Ucar rayonu Ucar Bələdiyyəsi | Müsabiqə | ƏMDK-nin 10 saylı ərazi şöbəsi - Ucar şəh H.Əliyev prosp28; Tel: (020) 2130113 | 9 fevral 2017, 15:00-dan 18:00-dək Ucar şəhəri | 100 kv.m Satılır | 7.6 | 480 | Sahibkarlıq | II zona | 904012000755 |
| 15 | Ucar rayonu Alpout Bələdiyyəsi | Müsabiqə | ƏMDK-nin 10 saylı ərazi şöbəsi - Ucar şəh H.Əliyev prosp28; Tel: (020) 2130113 | 9 fevral 2017, 15:00-dan 18:00-dək Ucar şəhəri | 100 kv.m Satılır | 7.6 | 800 | Sahibkarlıq | V qrup,şərti yararsız | 904012000761 |
| 16 | Bərdə rayonu Mustafaağalı Bələdiyyəsi | Müsabiqə | ƏMDK-nin 11 saylı ərazi şöbəsi - Bərdə şəh H.Əliyev prosp357; Tel: (020) 2052777 | 9 fevral 2017, 15:00-dan 18:00-dək Bərdə şəhəri | 16 ha İcarə | 24.32 | 480 | kənd təsərrüfatı | IV qrup,örüş | 610012001307 |
| 17 | Bərdə rayonu Mustafaağalı Bələdiyyəsi | Müsabiqə | ƏMDK-nin 11 saylı ərazi şöbəsi - Bərdə şəh H.Əliyev prosp357; Tel: (020) 2052777 | 9 fevral 2017, 15:00-dan 18:00-dək Bərdə şəhəri | 15.10 ha İcarə | 144.96 | 1330 | kənd təsərrüfatı | III qrup,əkin | 610012001304 |
| 18 | Gədəbəy rayonu Gədəbəy Bələdiyyəisi | Müsabiqə | ƏMDK-nin 12 saylı ərazi şöbəsi - Qazax şəh Azadlıq küç75; Tel: (022) 2951796 | 9 fevral 2017, 15:00-dan 18:00-dək Qazax şəhəri | 80 kv.m Satılır | 32 | 160 | Sahibkarlıq | III zona | 505012000597 |
| 19 | Ağstafa rayonu Xətai Bələdiyyəsi | Müsabiqə | ƏMDK-nin 12 saylı ərazi şöbəsi - Qazax şəh Azadlıq küç75; Tel: (022) 2951796 | 9 fevral 2017, 15:00-dan 18:00-dək Qazax şəhəri | 100 kv.m Satılır | 6.15 | 1000 | Sahibkarlıq | V qrup, banitet balı 19 | 502012000785 |
| 20 | Quba rayonu Quba Bələdiyyəsi | Hərrac | ƏMDK-nin 13 saylı ərazi şöbəsi - Xaçmaz şəh,.N.Nərimanov küç10; Tel: (023) 3253972 | 9 fevral 2017, 15:00-dan 18:00-dək Xaçmaz şəhəri | 43 kv.m Satılır | 41.30 | 1333 / 134 | Sahibkarlıq | I zona,V qrup şərti yararsız | 303012001806 |
| 21 | Quba rayonu Quba Bələdiyyəsi | Hərrac | ƏMDK-nin 13 saylı ərazi şöbəsi - Xaçmaz şəh,.N.Nərimanov küç10; Tel: (023) 3253972 | 9 fevral 2017, 15:00-dan 18:00-dək Xaçmaz şəhəri | 80 kv.m Satılır | 76.80 | 2480 / 248 | Sahibkarlıq | I zona,V qrup şərti yararsız | 303012001815 |
| 22 | Quba rayonu Quba Bələdiyyəsi | Hərrac | ƏMDK-nin 13 saylı ərazi şöbəsi - Xaçmaz şəh,.N.Nərimanov küç10; Tel: (023) 3253972 | 9 fevral 2017, 15:00-dan 18:00-dək Xaçmaz şəhəri | 53 kv.m Satılır | 50.90 | 1643 / 165 | Sahibkarlıq | I zona,V qrup şərti yararsız | 303012001812 |
